

Şəfəq SAHİBLİ

# SÖNMƏYƏN OCAQ

*Xalq yazıçısı Anar müəllimə ehtiramla*

Eşq ilə cahana baxırsan, ustad,
Min hikmət boylanır sözündən sənin.
Tanrı mələkləri qonub çiyninə
Hər gecə öpürlər üzündən sənin.

Zaura bənzəyən fani dünyada
Duydun ağrısını Təhminələrin.
Ürəyin zamanın güzgüsü olub,
Həyatın özütək hikmətin dərin.

Sənə xeyirxahlıq soyundan gəlib,
Ürəyin sönməyən ocaq kimidir.
Canınla, qanınla əsilzadəsən,
Ruhun vətən boyda qucaq kimidir.

Odlar diyarına hərarət verən
Məna ocağının köz bayrağısan.
Sənət dünyasının zirvələrində
Hər gün dalğalanan Söz bayrağısan.

Ruhun cümlə-cümlə ləpələndirir
Könüllər oxşayan incə duyğunu.
Vətən ətri verən Anar sözünün
Boynundan asmısan "Göz muncuğu"nu.